**Dövlət Statistika Komitəsində şahmat və dama üzrə idman turnirinə start verilib**



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Dövlət Statistika Komitəsinin 2013-cü il 22 fevral tarixli 25/t nömrəli əmri ilə təsdiq edilmiş xüsusi plana uyğun olaraq, Dövlət Statistika Komitəsində may ayının 1-də Komitənin Gənclər və İdman nümayəndəliyinin təşkilatçılığı ilə şahmat və dama üzrə idman turnirinə start verilib.

Turnirdə Dövlət Statistika Komitəsində Aparatın və Komitənin tabeliyində olan qurumların 37-yə yaxın əməkdaşı iştirak edir. Turnir mayın 3-də başa çatacaq. Turnirin qalibləri kubokla və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.



